

■ Janat Əskərbəy qızı

**Janat Əskərbəy qızı 1966-cı il, yanvar ayının 1-də anadan olmuşdur. Poeziyanı elmi fəaliyyətlə uzlaşdırmağı bacaran bir yazardır. L.N.Qumilyov adına Qazaxıstan (Astana) Milli Universitetində çalışır. Bir neçə şeir kitabının müəllifidir. Bir sıra ədəbi mükafatlara layiq görülmüşdür.**

* * *

Yaşıl bir tumurcuq doğurdu budaq,
Elə bil dəyişdi həyatın dadı.
Bu böyük dünyaya göz açdı o da,
Səma salamladı, yer salamladı.

Sarı zanbaqlarla dolu çəmənlər,
Yeni arzularla gəldilər cana.
Günəşin əliylə nur verdi səhər
Ümidin ən körpə başlanğıcına.

Nəşəylə alışdı göylərin şamı,
Bir gül ləçəyitək titrədi ürək.
Çəkib nəfəsini gözlədi hamı -
İndicə ülvi bir şeir gələcək!

...Ey nazlı baharım, vəfalısan sən!
O düz ilqarından əminəm, əmin!
Qalxacam ayağa mən də yenidən,
Tutub ətəyindən şeirlərimin!

* * *

Tənha söyüd ağlayır,
Tökülür yarpaqları...
Ümiddən dayaq gəzir
Titrəyən budaqları.

Rüzgar qılınctək kəsir,
Təzələyir dərdimi;
Üşüyür yalın söyüd,
Yetim uşaqlar kimi.

"Qarşıdan qış da gəlsə
Bahar düşür ağlıma...
Göyərərsən yenidən,
Salxım söyüd, ağlama!"

...Susur biçarə ağac
Salıb son yarpağını,
Təmkinlə qarşılayır
Ömrün xəzan çağını.

* * *

Aramızda qatı duman,
Acı həsrət... qucaq-qucaq.
Və bir sabah
Bircə günah
Əbədilik ayıracaq
Məni, Səni...

Payız kəsib yolumuzu,
Körpü salıb bu nigaran ürəyimiz...
Bağlayıblar qolumuzu,
Qul olmuşuq qədərə biz -
Mənimlə Sən...

Bizi saran nədir belə?
- kədər, acı!
Soruşan yox,
bəxtdən qaçan kimdən qaçır?
Yorulmuşuq bu dünyanın hər işindən!
Nakam eşqin qurbanları
Biri Mənəm,
Birisi Sən.

Hər şey yuxu,
Hər şey yalan!
Sevgi dolu xatirələr talan-talan!
Daha yoxdur o duyğular
Dözüm kimi, səbir kimi...
Ürəyimiz qəbir kimi -
Biri Mənim
Biri Sənin.

Yazılıbdır yazılanlar...
Odur böyük!
Odur hakim!
Sən kim, mən kim.
Savaşaraq,
barışaraq zaman-zaman
bax beləcə,
eyni gündə köçəcəyik bu dünyadan -
Mən... və Sən!

* * *

Min-min yarpaq - min-min ümid
Bürüyür yeri...
Tənha adam addımlayır,
Baxmadan geri.

Şər qarışır, yavaş-yavaş
Hava qaralır.
Külək əsir, göy üzünü
Buludlar alır.

Tozağacı mürgü döyür,
Söyüdlər yatır.
Körpə fidan kölgələrlə
Başını qatır.

Quşlar belə qəm içində
Düzülüb səfə,
Karvan-karvan baş alırlar
Günəş tərəfə.

...Addım-addım tərk eləyir
Sarı düzləri
Tənha adam... bir də onun
Yorğun izləri...

**Rus dilindən tərcümə edən:**
**Afaq ŞIXLI**